

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 21 avqust 2024-cü il №62 (2873) https://mod.gov.az Qiyməti 30 qəpik


## Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana dövlət səfəri

*Rusiya Federasiyasının Prezidenti Vladimir Putin avqustun 18-də Azərbaycan Respublikasına dövlət səfərinə gəlib.*

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Rusiya Prezidenti Vladimir Putini hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Avqustun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva evlərində ölkəmizdə dövlət səfərində olan Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə şam ediblər.

* * *

Avqustun 19-da Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Fəxri xiyabana gələrək Azərbaycan xalqının Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

* * *

Azərbaycanda dövlət səfərində olan Rusiya Federasiyasının Prezidenti Vladimir Putin avqustun 19-da Şəhidlər xiyabanını ziyarət edib.

Rusiya Prezidenti şəhidlərin xatirəsini anaraq "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

* * *

Azərbaycan Respublikasında dövlət səfərində olan Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin avqustun 19-da rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Rusiya Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidenti Vladimir Putini qarşılayıb.

Fəxri qarovul dəstəsinin rəisi Rusiya Prezidentinə raport verib.

Rusiya Federasiyasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirilib.

Fəxri qarovul dəstəsi dövlət başçılarının qarşısından keçib.



Prezidentlər birgə foto çəkdiriblər.

* * *

Azərbaycan və Rusiya prezidentlərinin məhdud tərkibdə görüşü keçirilib.

Avqustun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə məhdud tərkibdə görüşü keçirilib.

Görüşdə çıxış edən Prezident **İlham Əliyev** deyib:

- Hörmətli Vladimir Vladimiroviç, Sizi Azərbaycanda bir daha səmimi-qəlbdən salamlayıram. Xoş gəlmisiniz. Görüşlərimiz müntəzəm xarakter daşıyır. Bu il artıq iki dəfə görüşmüşük. Bu gün dövlət səfəri çərçivəsində təmaslarımızı davam etdiririk. Mahiyyət etibarilə artıq müzakirələrə dünəndən başlamışıq. Həm ikitərəfli gündəlik, həm də regional təhlükəsizlik ilə bağlı mühüm məsələlər üzrə geniş fikir mübadiləsi apardıq. Bu gün məhdud formatda və geniş formatda da davam edəcəyik.

Qeyd etmək istərdim ki, ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin səviyyəsindən çox məmnunuq. 2022-ci ilin fevralında imzaladığımız müttəfiqlik qarşılıqlı fəaliyyət haqqında Bəyannamə uğurla yerinə yetirilir, həm siyasi, həm də iqtisadi sahədə çox müsbət dinamika, yaxşı rəqəmlər görürük. Əlbəttə, həm energetika, həm nəqliyyat sahələrində əməkdaşlıq edirik, humanitar əlaqələrə, həmçinin bir çox digər sahələrə xüsusi diqqət yetiririk. Ona görə də bu gün gündəlikdə duran məsələləri bir daha müzakirə edəcəyik. Əminəm ki, səfər həm Sizin üçün xoş, həm də münasibətlərimiz baxımından faydalı olacaq.

Bir daha xoş gəlmisiniz.

Sonra çıxış edən Prezident **Vladimir Putin** deyib:

- Hörmətli İlham Heydər oğlu, çox sağ olun.

İlk növbədə, dəvətə görə sağ olun. Biz Sizinlə bu səfəri çoxdan razılaşdırmışdıq və Bakıda olmağıma, bu şəhərin gözəlliyinə bir daha tamaşa etməyimə çox şadam. Əmin oldum ki, Siz və xanımınız onun inkişafına böyük diqqət yetirirsiniz. Bu, göz qabağındadır. Şəhər inkişaf edir, uğurla inkişaf edir, sözsüz ki, regionun oazisinə çevrilir.

Münasibətlərimiz hələ 2022-ci ilin əvvəlində Sizinlə imzaladığımız Bəyannamə əsasında inkişaf edir, uğurla yerinə yetirilir. Bu ilin aprelində Sizin Moskvaya səfəriniz zamanı ikitərəfli münasibətlərimizin inkişafına yaxşı təkan verilib.

İqtisadi-ticari əlaqələr uğurla inkişaf edir. Rusiyada keçirilən əvvəlki görüşümüzdə Siz mənə demişdiniz və Sizinlə razıyam ki, 4 milyard dollardan bir az çox yaxşı rəqəmdir. Bu, yaxşı rəqəmdir, amma bizim imkanlarımızın potensialını əks etdirmir. Həqiqətən, burada yalnız energetika, sənaye kooperasiyası, nəqliyyat, logistika, yüngül sənayedən danışmaq olmaz. Bizim birgə fəaliyyətimizin istiqamətləri çoxdur.

Azərbaycan iqtisadiyyatına qoyulan dörd milyarddan artıq birbaşa investisiyalar da pis göstərici deyil. Azərbaycanda Rusiya kapitalı ilə 1270-dən çox müəssisə fəaliyyət göstərir, sözsüz ki, bu da son hədd deyil.

Humanitar əlaqələrə gəldikdə, biz onlara çox böyük əhəmiyyət veririk və rus dilinin inkişafına göstərdiyiniz diqqətə görə Sizə minnətdarıq. Azərbaycanda rus dilində 300 məktəb, bizim aparıcı ali təhsil müəssisələrinin filialları fəaliyyət göstərir. Minlərlə azərbaycanlı gənc Rusiya Federasiyasının aparıcı universitetlərində təhsil alır və biz bu qarşılıqlı fəaliyyəti genişləndirməyə hazırıq.

Hökumətlərarası komissiya işləyir. Elə bu yaxınlarda - gərək ki, 10 gün əvvəl burada, Bakıda hökumətlərarası komissiyanın növbəti iclası keçirildi. O, uğurla fəaliyyət göstərir.

Yeri gəlmişkən, bilirəm ki, bu ilin iyununda Azərbaycanda Rusiya Mədəniyyəti Günləri keçirilib. Bu tədbirin təşkilinə görə Sizə minnətdaram.

Əlbəttə, dünən Sizinlə bu mövzuya toxunduq və bu gün davam etdirəcəyik. Məsələ Cənubi Qafqazda vəziyyətin nizamlanmasına aiddir.

Aydındır və hamıya yaxşı məlumdur ki, Rusiya, o cümlədən Ukrayna istiqamətində böhranlarla üzləşir, amma Rusiyanın Cənubi Qafqazda vəziyyətdə tarixi iştirakı son bir neçə ildə bizə bu hadisələrə cəlb olunmağın vacibliyini diktə edir, əlbəttə, tərəflərin lazım bildiyi hissədə.

Əgər biz Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin imzalanmasına nail olmaq üçün nəsə edə biləriksə, vəziyyəti delimitasiya, sərhədlərin demarkasiyasına gətirib çıxararıqsa, Sizinlə dəfələrlə qeyd etdiyimiz kimi, müvafiq logistika istiqamətlərinin və ya iqtisadiyyatın qarşısında maneələri aradan qaldırarıqsa, buna çox şad olardıq.

Əlbəttə, Azərbaycana səfərdən sonra baş nazir Paşinyanla əlaqə saxlayacağam və ona danışıqlarımızın nəticələrindən bəhs edəcəyəm.

Bilirəm ki, Azərbaycan tam nizamlanma ilə bağlı bütün prosedurların başa çatmasına istiqamətlənib, bu, mənə yaxşı məlumdur. Bu barədə danışacağıq.

Yekunda dəvətə görə Sizə bir daha təşəkkür etmək istəyirəm. Əminəm ki, bu, çox faydalı diskussiya olacaq və görürəm ki, şəhərdə vəziyyət də çox əlverişlidir. Biz Bakını sevirik. Şəhər gözəldir və ən başlıcası, bir çox başqa böyük yaşayış məntəqələrinin qibtə edəcəyi səviyyədə inkişaf edir.

Prezident **İlham Əliyev**: Çox sağ olun.

* * *

Avqustun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə geniş tərkibdə görüşü olub.

Görüşdə çıxış edən Prezident **İlham Əliyev** deyib:

- Hörmətli Vladimir Vladimiroviç. Hörmətli nümayəndə heyətlərinin üzvləri. Sizi Azərbaycanda bir daha səmimi-qəlbdən salamlayıram.

Dünən və bu gün artıq ikitərəfli gündəliyi nəzərdən keçirdik. Qarşılıqlı fəaliyyətimizin çox mühüm məsələlərini müzakirə etdik və indi işimizi geniş tərkibdə davam etdiririk.

İlk növbədə, Sizi bir daha salamlamaq istərdim. Siz birinci dəfə deyil ki, Azərbaycana gəlirsiniz, amma ilk dəfədir dövlət səfəri edirsiniz və bu səfər ikitərəfli münasibətlərimiz üçün müstəsna əhəmiyyətə malikdir.

Bu gün Sizinlə artıq fikir mübadiləsi apardıq, dost, qonşu və müttəfiq olan ölkələrimiz arasında münasibətlərin inkişafından məmnunluq ifadə etdik. Bütün istiqamətlər üzrə müsbət dinamika görürük. Nümayəndə heyətlərimizin tərkibi də bunu çox əyani şəkildə göstərir. Bu, çox mətləblərdən xəbər verir. Yəni, qarşılıqlı fəaliyyətin müzakirəsi üçün mövzular çoxdur və qarşılıqlı fəaliyyətimizin əhatə dairəsi ildən-ilə genişlənir.

Biz bütün istiqamətlər üzrə qarşılıqlı fəaliyyətimizi möhkəmləndirmək əzmindəyik və əminəm ki, Sizin səfəriniz ölkələrimizin və xalqlarımızın yaxınlaşmasında növbəti mühüm addım olacaq.

Bir daha xoş gəlmisiniz.

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU
https://mod.gov.az
21 avqust 2024-cü il

# Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana dövlət səfəri





**(Əvvəli 1-ci səhifədə)**

Prezident **Vladimir Putin** çıxış edərək deyib:

- Dəvətə görə çox sağ olun, İlham Heydər oğlu. Siz də artıq qeyd etdiyiniz kimi, bizim hər iki tərəfdən geniş nümayəndə heyətimiz var. Rusiya Federasiyası Hökuməti demək olar ki, tam heyətdə buradadır.

Artıq Sizinlə qeyd etdik və xatırladıq ki, bu yaxınlarda, on gün əvvəl hökumətlərarası komissiyanın iclasında münasibətlərimizin inkişaf etdiyi bildirildi - təkcə bildirilmədi, həm də qeyd edildi ki, biz 2022-ci ilin müvafiq Bəyannaməsində təsbit olunmuş və Sizin cari ilin aprelində səfəriniz zamanı əldə olunmuş razılaşmaları tam həcmdə yerinə yetiririk.

Belə geniş tərkibdə iş bizə ən yaxın perspektivdə gələcəyə yönəlmiş addımları müəyyən etməyə imkan verir. Hərçənd, əvvəlki görüşümüz "məhdud tərkibdə" adlansa da, tamamilə prioritet xarakterli bir sıra məsələlər tam nəzərdən keçirildi.

Biz hələ müvafiq sənədləri imzalamalıyıq, həmkarlar isə dünən axşam, bizim də Sizinlə etdiyimiz kimi, qeyri-rəsmi şəraitdə, bu gün isə artıq gün ərzində öz aralarında ünsiyyət qurmaq və ən yaxın perspektiv üçün addımları müəyyənləşdirmək imkanı əldə etdilər.

Beləliklə, Sizə təşəkkürümü bildirirəm. Yəqin ki, hökumətlərarası komissiyanın rəhbərlərinə söz vermək olar.

Prezident **İlham Əliyev**: Sağ olun.

* * *

Avqustun 19-da Bakıda Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin iştirakı ilə mübadiləsi mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dövlət başçılarının Birgə Bəyanatını qəbul ediblər.

"Azərbaycan Respublikasının ixracın və investisiyaların təşviqi Agentliyi - AZPROMO ilə "Rusiya Birbaşa İnvestisiyalar Fondunun idarəedici şirkəti" Səhmdar Cəmiyyəti arasında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Rusiya Birbaşa İnvestisiyalar Fondunun baş direktoru Kirill Dmitriyev mübadilə ediblər.

"Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyi arasında iqlim dəyişmələri və aşağı karbonlu inkişaf üzrə Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Reşetnikov mübadilə ediblər.



"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti və Federal Əmək və Məşğulluq Xidməti (Rusiya Federasiyası) arasında əməyin təftişi məsələləri üzrə qarşılıqlı anlaşma və əməkdaşlıq Memorandumu"nu Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Rusiya Federasiyasının Əmək və Məşğulluq Federal Xidmətinin rəhbəri Mixail İvankov mübadilə ediblər.

"Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə İstehlakçıların Hüquqlarının Müdafiəsi və İnsan Rifahı sahəsində Nəzarət üzrə Federal Xidmət (Rusiya Federasiyası) arasında qida məhsullarının təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli və Rusiya Federasiyası İstehlakçıların Hüquqlarının Müdafiəsi və İnsan Rifahına Nəzarət Federal Xidmətinin rəhbəri Anna Popova mübadilə ediblər.

"Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli və Rusiya Federasiyasının Baytarlıq və Fitosanitar Nəzarəti Federal Xidmətinin rəhbəri Sergey Dankvert mübadilə ediblər.

"Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında səhiyyə, tibbi təhsil və tibb elmi sahələrində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev və Rusiya Federasiyasının səhiyyə naziri Mixail Muraşko mübadilə ediblər.

* * *

Avqustun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış edib.

**Prezident İlham Əliyevin bəyanatı**

- Hörmətli Vladimir Vladimiroviç.

Hörmətli qonaqlar, əziz dostlar.

Əziz qonaqlarımızı bir daha səmimi-qəlbdən salamlayıram. Rusiya Federasiyasının Prezidenti Azərbaycanda dövlət səfərindədir. Səfər xüsusi xarakter daşıyır. Bizim ən yüksək səviyyədə görüşlərimiz müntəzəm xarakter daşıyır. Bu il iki dəfə - bir dəfə Moskvada, bir dəfə isə beynəlxalq tədbir çərçivəsində görüşmüşük. Amma, əlbəttə ki, dövlət səfərinin formatı və xarakteri xüsusi əhəmiyyətə malikdir, belə demək mümkünsə, həm də dövlətlərarası münasibətlərin yüksək səviyyəsindən xəbər verir.



Bu gün qəbul edilən sənədlər, ilk növbədə, prezidentlərin Birgə Bəyanatı daxil olmaqla, münasibətlərimizin dostluq və müttəfiqlik xarakterini bir daha təsdiqləyir.

2022-ci ilin fevralında imzalanmış qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında Bəyannamənin müddəaları uğurla həyata keçirilir. Ölkələrimiz müttəfiqlər, dostlar, yaxın tərəfdaşlar və qonşular kimi fəaliyyət göstərir.

Bu gün dövlətlərarası münasibətlərin geniş spektrini ətraflı müzakirə etdik. Hətta nümayəndə heyətlərinin tərkibinə nəzər salmaq kifayətdir ki, dövlətlərarası strukturların fəaliyyət sferasının, əslində, nə qədər geniş olduğunu görəsən.

Biz iqtisadi-ticari münasibətlərlə bağlı məsələləri detallı şəkildə təhlil etdik. Keçən il və bu ilin 6 ayında əmtəə dövriyyəsinin artımı əməkdaşlığın böyük potensialından xəbər verir. Ötən il biz 4 milyard dollar həddini adladıq və bunun son hədd olmadığı barədə fikir mübadiləsi apardıq.

Humanitar əməkdaşlıq sahəsinə həmişə xüsusi diqqət yetirilir. Azərbaycanda rus dilində tədris aparılan 324 məktəb var, onlarda 160 min şagird təhsil alır. 800 mindən çox şagird rus dilini ikinci dil kimi öyrənir. Azərbaycanın 26 ali təhsil müəssisəsində 15 mindən artıq tələbənin təhsil aldığı rus dili bölmələri var.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin və İ.M.Seçenov adına Tibb Universitetinin filialları uğurla fəaliyyət göstərir. Bu gün, həmçinin təhsil sahəsində münasibətlərin inkişafı məsələsini müzakirə etdik.

Biz, eyni zamanda, məhdud formatda keçirilən görüşdə regional təhlükəsizliklə bağlı məsələləri müzakirə etdik. Ötən ilin sentyabrından sonra regionda tamamilə yeni şərait yaranıb. Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tam şəkildə bərpa edib. Təbii ki, yeni şərait Cənubi Qafqazda möhkəm və uzunmüddətli sülhün bərqərar olması üçün yeni imkanlar açır. Bütün Cənubi Qafqaz regionunda sabitlik və təhlükəsizlik bir çox hallarda Rusiya ilə Azərbaycan arasında sıx qarşılıqlı fəaliyyətdən asılıdır.

Biz dövlətlərarası münasibətlərimiz üçün də müstəsna əhəmiyyətə malik olan, həmçinin regional nəqliyyat dəhlizləri, nəqliyyat yolları, "Şimal-Cənub" layihəsinin həyata keçirilməsi ilə bağlı məsələləri ətraflı müzakirə etdik.

Deməliyəm ki, Azərbaycanın ərazisində "Şimal-Cənub" dəhlizinin həm dəmir yolu, həm də avtomobil yolu seqmentləri tam şəkildə reallaşdırılıb və uğurla fəaliyyət göstərir. Hazırda bu dəhlizin ötürücülük qabiliyyətini yüksəltmək üçün onun dəmir yolu sahəsinin modernləşdirilməsi ilə məşğuluq. Biz ildə 15 milyon ton və daha çox - 30 milyon tonadək yüklərin daşınması imkanlarından danışırıq və bu, tamamilə realdır. Ümidvaram ki, hazırkı şəraitdə Rusiya və Azərbaycan, həmçinin bu dəhlizin digər iştirakçıları birgə səylərlə öz fəaliyyətini davam etdirəcəklər.

Bir daha deməliyəm ki, biz bu il həmin dəmir yolu sahəsinin tələb edilən ötürücülük qabiliyyətinə malik olması üçün modernləşdirilməsi məqsədilə təxminən 120 milyon dollar ekvivalentində vəsait nəzərdə tutmuşuq.

Rusiya və Azərbaycanın müxtəlif şəhərləri arasında hər gün 20 reys həyata keçirilir. Deməliyəm ki, hətta Sovet İttifaqı dövründə bu qədər qarşılıqlı reyslər olmayıb. Eyni zamanda, onlar Azərbaycan və Rusiya daşıyıcıları arasında bərabər bölünüb. Bu, məhz ondan xəbər verir ki, insanlar arasında təmaslar mütəmadi xarakter daşıyır. Bu gün, həmçinin ölkələrimizin vətəndaşları arasında qarşılıqlı səyahətlərin artdığını qeyd etdik.

Energetika sferasında həm neft-qaz sektorunda, həm də elektrik enerjisi sahəsində vəziyyəti geniş təhlil etdik. Biz bu istiqamətdə fəal işləyirik və əminəm ki, gələcəkdə də fəaliyyətimizi əlaqələndirəcəyik.

Həmçinin hər iki tərəfi narahat edən məsələlər, məhz Xəzərdə ekoloji vəziyyət, onun fəlakətli dayazlaşması üzrə fikir mübadiləsi apardıq. Danışıqlar apardığımız otağın pəncərəsindən Vladimir Vladimiroviçə hələ iki il əvvəl suyun altında olan, bu gün isə artıq bir metr yuxarıya çıxan qayaları göstərdim. Biz bunu Abşeron yarımadasının bütün sahili boyu, həm də Azərbaycanın bütün sahilyanı ərazilərində müşahidə edirik. Mümkün ekoloji fəlakətin qarşısını almaq üçün biz birgə səylərlə vəziyyəti təhlil etmək və həm ikitərəfli, həm də beştərəfli formatda həll yollarını müəyyənləşdirmək barədə razılığa gəldik. Yəni, bu ekoloji fəlakətin meydana çıxmasını artıq açıq-aşkar görürük.

**(Ardı 3-cü səhifədə)**

# Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana dövlət səfəri



(Əvvəli 2-ci səhifədə)

Mən Azərbaycanın COP29 iqlim konfransında ev sahibi qismində namizədliyini dəstəklədiyinə görə Vladimir Vladimiroviçə və Rusiya tərəfinə təşəkkürümü bildirdim. Rusiyanın dəstəyi müstəsna dərəcədə mühümdür və biz hazırda ikitərəfli formatda da bu iqlim konfransına hazırlıqla bağlı məsələlər üzərində işləyirik.

Vladimir Vladimiroviç, mənim dəvətimi qəbul etdiyinizə və dövlət səfəri ilə Azərbaycana gəldiyinizə görə bir daha Sizə təşəkkürümü bildirmək istərdim. Şübhəsiz ki, bu səfər tarixi xarakter daşıyır, ölkələrimiz arasında dostluq və müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi işinə mühüm töhfə verəcək.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

Sonra Rusiya Prezidenti bəyanatla çıxış edib.

### Prezident Vladimir Putinin bəyanatı

- Hörmətli İlham Heydər oğlu.
Hörmətli dostlar, həmkarlar.
Xanımlar və cənablar.

Azərbaycan Respublikasına dövlət səfərinə dəvətə görə İlham Heydər oğluna bir daha təşəkkür etmək istərdim. Qonaqpərvər Azərbaycan torpağında olmaq, Sizin rəhbərliyinizlə inkişaf edən Bakının mənzərələrini seyr etmək bizim üçün çox xoşdur.

Vurğulamaq istərdim ki, Rusiya Azərbaycanla çoxplanlı dostluq münasibətlərinin inkişafına böyük əhəmiyyət verir. Bu münasibətlərin əsasını bərabərlik, bir-birinin maraqlarını nəzərə almaq və əlbəttə, əsrlər boyu xalqlarımızı birləşdirən sıx insani və mədəni bağlar təşkil edir.

Dünən və bu gün keçirilən danışıqlar əsnasında Sizə görüşümüzün, birgə işimizin başlanması üçün yaradılan səmimi ailə ab-havasına görə təşəkkürümü bildirmək istəyirəm. Bu gün də, sözün əsl mənasında, həmin şəraitdə işgüzar təmaslarımızı davam etdirdik. Bu gün aparılan danışıqlar zamanı biz qarşılıqlı fəaliyyətimizə dair məsələlərin ən geniş spektrini ətraflı, işgüzar şəraitdə müzakirə etdik.

Qəbul edilən Birgə Bəyanatda ikitərəfli əlaqələrin bütün kompleksi üzrə gələcək dinamik inkişafın yeni genişmiqyaslı vəzifələri qarşıya qoyuldu. Bu gün imzalanan sənədlər də onların həllinə kömək edəcək. İndicə bunun necə baş verdiyinin şahidi oldunuz.

Danışıqlarda qarşılıqlı faydalı iqtisadi-ticari əməkdaşlığın inkişafına diqqət yetirildi. Bu, qanunauyğundur, çünki Rusiya və Azərbaycan bir-biri üçün mühüm iqtisadi tərəfdaşlardır. Artıq qeyd olundu, mən bu barədə bu gün görüşümüzün əvvəlində də dedim - dörd milyard dollardan bir az çox dövriyyə var və ona artıq bu ilin birinci yarısında 17 faiz əlavə olunub. Azərbaycan iqtisadiyyatına 4 milyarddan çox birbaşa investisiyalar qoyulub. Əlbəttə, Azərbaycan bazarındakı 1300 müəssisə ondan xəbər verir ki, bizdə fəaliyyət müsbət istiqamətdə inkişaf edir və yaxşı perspektivlərə malikdir.

Azərbaycan Prezidenti elə indicə bizim fəaliyyət istiqamətlərimizdən danışdı. Onların hər biri bizim üçün real strateji əhəmiyyətə malikdir.

Hökumətlərarası Komissiyadan olan həmkarlar əsas iqtisadi qarşılıqlı fəaliyyət məsələlərini daim diqqət mərkəzində saxlayırlar. Komissiyanın bizim səfərimiz ərəfəsində Bakıda keçirilən növbəti iclası çox məhsuldar olub.

Artıq dediyim kimi, Rusiya ən iri investorlar sırasına daxildir və biz buna yalnız sevinirik.

Azərbaycan bazarında şirkətlərimiz özünü yetərincə rahat hiss edir. Artıq xatırladıldı ki, burada həm "LUKOYL", həm yığılma istehsalını təşkil edən "KamAZ", həm də "Sollers", "UAZ" var. Onlar uğurla fəaliyyət göstərir və inkişaf perspektivlərinə malikdir. Biz onların işinə yaradılan şəraitə görə Azərbaycan hakimiyyətinə minnətdarıq.

"Transmaşholdinq" fevral ayında Bakı metropoliteni üçün Rusiya vaqonlarının böyük partiyasının istehsalına dair növbəti müqavilə bağlayıb. Ümidvaram ki, bu qatarlardan istifadə edənlər də razı qalacaqlar.

Bizim "Şimal-Cənub" layihəsinin reallaşdırılması üzrə birgə planlarımızı da xüsusi qeyd edərdim. Bu, bizə Hind okeanının sahillərinə çıxmağa və bu marşrutları qarşılıqlı fayda və qarşılıqlı maraq kontekstində istifadə etməyə imkan verəcək.

Humanitar əlaqələr fəal şəkildə genişlənir. İyunda Azərbaycanda Rusiya Mədəniyyəti Günləri uğurla keçirildi, bu çərçivədə sərgilər, konsertlər, teatr tamaşaları, başqa parlaq mədəniyyət hadisələri oldu.

Xoş ənənəyə uyğun olaraq, azərbaycanlı dostlarımızı sentyabrda onuncu - yubiley Sankt-Peterburq Mədəniyyət Forumuna dəvət edirik.

Azərbaycanda rus dilindən hər yerdə və sərbəst istifadə olunur. Hiss edirik ki, Azərbaycan Respublikasının rəhbərliyi bu tendensiyanı hərtərəfli dəstəkləyir. İlham Heydər oğlu, rus dilinə göstərilən bu diqqətə görə Sizə minnətdarıq. Ölkədə tədrisi rus dilində aparılan 300-dən çox məktəb, həmçinin Moskva Dövlət Universitetinin, Seçenov adına Moskva Tibb Universitetinin filialları fəaliyyət göstərir.

Hazırda, - biz elə indicə bunu geniş tərkibdə görüş əsnasında müzakirə etdik, - Bakıda Rusiya-Azərbaycan Universitetinin yaradılması təşəbbüsü nəzərdən keçirilir. Azərbaycan Prezidenti bu ideyanı dəstəkləyib. Ümidvaram ki, biz onu kifayət qədər tez həyata keçirəcəyik. Bizim tərəfimizdən Sankt-Peterburq Dövlət Universiteti layihəyə qoşulmağa hazırdır.

Rusiyada, həmçinin Azərbaycan üçün yüksəkixtisaslı kadrların hazırlanması üzrə çox iş görülür. Hazırda Rusiyanın ali məktəblərində 8 minə yaxın azərbaycanlı gənc təhsil alır, o cümlədən onların mindən çoxu Rusiya federal büdcəsi hesabına oxuyur. Ölkələrimizdə sovet xalqının Böyük Vətən müharibəsində igidliyini hörmətlə anırlar. Xatırlayırlar ki, bizim atalarımız, babalarımız və ulu babalarımız birlikdə ümumi Vətənimizi qoruyublar və dünyanın nasizmdən xilasına həlledici töhfə veriblər. İlham Heydər oğlu ilə razılığa gəldik ki, bizim Böyük Qələbəmizin qarşıdakı 80 illiyini geniş şəkildə qeyd edək.

Artıq dediyim kimi, danışıqlarda regional gündəliyə dair, təbii ki, Azərbaycanın Xəzər regionunda və Cənubi Qafqazda oynadığı rol nəzərə alınaraq, bir sıra məsələlər də müzakirə olunub.

Aktual beynəlxalq mövzulara da toxunulub. Xarici siyasətdə ölkələrimiz beynəlxalq hüququn aliliyi, suverenlik və daxili işlərə müdaxilə edilməməsi prinsiplərinə qətiyyətlə tərəfdardırlar.

Rusiya və Azərbaycan çoxtərəfli platformalar daxil olmaqla, həmçinin BMT və Müstəqil Dövlətlər Birliyində öz səylərini sıx əlaqələndirirlər. Bu ilin oktyabrında İlham Heydər oğlunu MDB Dövlət Başçıları Şurasının iclasında, həmçinin Kazanda keçiriləcək BRICS sammiti çərçivəsində "autriç" formatında görüşdə görməyə şad olacağıq.

Azərbaycan ilə Ermənistan arasında münasibətlərin hazırkı vəziyyətinə də diqqət yetirdik. Vurğulayım ki, Rusiya gələcəkdə də Azərbaycan-Ermənistan qarşılıqlı fəaliyyətinin normallaşdırılmasına və 2020-2022-ci illərdə Rusiya, Azərbaycan prezidentləri və Ermənistanın baş naziri arasında əldə olunmuş məlum üçtərəfli razılaşmalar əsasında sülh sazişinin bağlanmasına hərtərəfli kömək edəcək. Həmçinin hələ Sovet İttifaqı vaxtından bizdə qalan müvafiq sənədləri nəzərə almaqla, sərhədlərin delimitasiyası və demarkasiyasına, transsərhəd marşrutlarının açılmasına, humanitar təmasların yaradılmasına kömək etməyə hazırıq.

Bizim mövqeyimiz ondan ibarətdir ki, Cənubi Qafqazda sülh və sabitlik bu regionun bütün dövlətlərinin və xalqlarının köklü maraqlarına tam şəkildə cavab verməlidir.

Sonda bir daha vurğulamaq istərdim ki, biz səfərin yekunlarından tamamilə məmnunuq. Əminəm ki, bu gün aparılan danışıqlar və əldə olunan razılaşmalar Rusiya-Azərbaycan strateji tərəfdaşlığının gələcəkdə də möhkəmlənməsinə xidmət edəcək.

Diqqətinizə görə təşəkkür edirəm.



* * *

Avqustun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin "Bakı Ağ Şəhər"də oldular.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin avqustun 19-da Bakıda Müqəddəs Mürdaşıyan Zənənlər Kafedralında oldular.

Dövlət başçılarına Müqəddəs Mürdaşıyan Zənənlər Kafedralı barədə məlumat verən Bakı və Azərbaycan yepiskopu **Aleksiy** dedi:

- Hörmətli Vladimir Vladimiroviç, hörmətli İlham Heydər oğlu, sizi Bakı şəhərinin Kafedral kilsəsində salamlamağa şadam, bu, mənim üçün böyük şərəfdir. Üstəlik, bu gün İsa Peyğəmbərin mücəssəməsi günüdür.

Bu məbəd 2003-cü ildə azərbaycanlı mesenatların səyləri və Heydər Əlirza oğlu Əliyevin bilavasitə qayğısı ilə bərpa olunub və rəsmi olaraq açılıb. Bakı şəhərində məbədlərin bir çoxu Azərbaycan hökumətinin vəsaiti ilə bərpa edilib. Ona görə də Azərbaycanın bütün pravoslavları adından İlham Heydər oğluna təşəkkür etmək istəyirəm.

Prezident **Vladimir Putin**: Gözəldir. Sağ olun ki, dəstəkləyirsiniz.

Prezident **İlham Əliyev**: Bizim pravoslav vətəndaşlarımızın özlərini evlərindəki kimi hiss etmələrinə şadıq. Bu, hamının vahid dost ailə kimi yaşaması, dövlətimiz üçün böyük dəyərdir. Həm xristian, həm müsəlman, həm də yəhudi bayramlarını birlikdə keçiririk. Odur ki, burada belə bir vəhdət var.

* * *

Bildirilib ki, Bakı yeparxiyasının mərkəzi - Müqəddəs Mürdaşıyan Zənənlər Kafedralı və ya "Jen Mironosits" pravoslav kafedral kilsəsi 1909-cu ildə memar M.Verjbitskinin layihəsi əsasında rus üslubunda, məşhur Azərbaycan milyonçusu və xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevin şəxsi maddi yardımı və ianələr hesabına inşa edilib. Kilsənin açılışında o dövrün görkəmli siyasi və din xadimləri iştirak ediblər.

Kommunist rejimi dövründə məbəddən anbar kimi istifadə olunub, bir müddət sonra isə idmançıların ixtiyarına verilib.

Məbədin binası 1991-ci ildə Rus Pravoslav Kilsəsinin sərəncamına verilib və burada təmir-bərpa işləri aparılıb.

Moskvanın və bütün Rusiyanın Patriarxı II Aleksiy Azərbaycana səfəri zamanı 2001-ci il mayın 27-də bu məbədi müqəddəs elan edib və ona baş kafedral kilsə statusu verib.

Azərbaycan və Rusiya prezidentləri kilsəyə xatirə hədiyyələri təqdim ediblər.

* * *

Avqustun 19-da Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin şərəfinə dövlət ziyafəti verilib.

Ziyafətdə Azərbaycanın və Rusiyanın musiqi əsərlərindən ibarət konsert proqramı təqdim olunub.

* * *

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycana dövlət səfəri avqustun 19-da başa çatıb.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Rusiya Prezidenti Vladimir Putini hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər yola salıblar.

**AZƏRTAC-ın materialları əsasında**

# Bir ana hər əsgərin, bir əsgər hər ananın doğması və əzizidir



*Azərbaycan Respublikasının müdafiə nazirinin təsdiq etdiyi 2024-cü ilin hazırlıq planına uyğun olaraq, avqustun 18-də Azərbaycan Ordusunda gənc əsgərlərin andiçmə mərasimləri keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, andiçmə mərasimlərində hərbi orkestrlərin müşayiəti ilə döyüş bayraqları təntənəli surətdə sıra meydanlarına gətirildikdən sonra tədbirlər açıq elan olunub.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonda gənc əsgərlər təntənəli surətdə Hərbi Andı qəbul edərək Vətə-



nə sadiq olacaqlarına söz veriblər.

Müdafiə Nazirliyinin nümayəndələri və hərbi hissə komandanlıqları çıxış edərək gənc əsgərləri Hərbi Andı qəbul etmələri münasibətilə təbrik edib, onlara Vətənə, dövlətə və Ali Baş Komandana, Hərbi Anda sadiq olmalarını, nümunəvi, nizam-intizamlı xidmət etməyi, silah və texnikanın sirlərini dərindən öyrənərək döyüş qabiliyyətlərini daim artırmalarını, komandir-rəis heyətinin əmr və sərəncamlarını dəqiq və vaxtında yerinə yetirmələrini, torpaqlarımızın müdafiəsi naminə döyüşə hər an hazır olmalarını tövsiyə ediblər.

Sonda hərbi qulluqçular təntənəli marşla tribunaların önündən keçiblər.

* * *

Azərbaycan xalqı tarixin bütün mərhələlərində öz ordusuna dərin sevgi və məhəbbət bəsləmişdir. Çünki ordu ölkənin dayağı, müstəqilliyin ən etibarlı təminatçısı, xalqın güvən mənbəyidir. Ordunun gücü, onun arxasında dayanan xalqın dəstəyindən qaynaqlanır. Bu gün ordumuza olan sevgi və hörmətin kökləri xalqımızın ürəyində tarixən formalaşıb.

Son dövrlərdə, xüsusilə də hərbi hissələrdə keçirilən Hərbi Andiçmə mərasimlərində valideynlərin və ictimaiyyət nümayəndələrinin ordumuza olan bağlılığını, güvənini bir daha müşahidə etmək mümkündür. Bu mərasimlər xalqın ordusuna olan sevgisinin sonsuz olduğunu göstərir. Andiçmə mərasimləri gənc əsgərlər üçün Vətən borcunun başlanğıcı, valideynlər üçün isə qürur və fərəh mənbəyidir.

Valideynlər üçün oğullarının hərbi xidmətə çağırıldığı gün onların həyatında ən önəmli və yaddaqalan hadisələrdən biridir. Bu günlərdə ata və anaların ürəyi bir tərəfdən qürur, digər tərəfdən isə vətənpərvərlik hissi ilə dolub-daşır. Onlar övladlarının Vətən qarşısında övladlıq borcunu yerinə yetirməsi ilə fəxr edir, dövlətin güclənməsinə öz töhfələrini verdiklərinə inanırlar.

Əməkdaşlarımız andiçmə mərasimlərində gənc əsgərlərin valideynləri və yaxınları ilə görüşərək onların düşüncələrini qələmə alıblar.

**"Azərbaycan Ordusu"**

"N" hərbi hissəsində əsgər Namiq Mahmudzadənin atası **Eldəniz Mahmudzadə** övladının xidmətindən söz açaraq belə dedi: "Oğlumun bu müqəddəs borcu yerinə yetirmək üçün hərbi andı qəbul etməsi bizim ailəmiz üçün böyük qürur mənbəyidir. Biz onu hər zaman vətənpərvərlik ruhunda böyütmüşük. Bilirik ki, Vətənə xidmət etmək hər bir gəncin borcudur. Oğlumun timsalında bütün əsgərlərə xidmət müddətlərində uğurlar arzu edirəm. Hər biri Vətənin keşiyində məğrur və ayıq-sayıq dayansın".

Səmimi olaraq deyim ki, hazırda həyatımın ən xoşbəxt günlərindən birini yaşayıram. Bu günün təəssüratları uzun müddət yaddaşımdan silinməyəcək, - deyə əsgər Mustafa Şadmanovun anası **Dilbər** xanım bir valideyn kimi Azərbaycan əsgərinə bu gün göstərilən diqqət və qayğını yüksək qiymətləndirdiyini qeyd etdi. O, gənc əsgərlərə öz tövsiyyələrini çatdıraraq, Vətənə xidmət zamanı hər bir əsgərə igid və nümunəvi olmağı arzu etdi: "Biz oğullarımızı Vətən qarşısında övladlıq borcunu yerinə yetirmək üçün böyütmüşük. Oğlum bu gün hərbi xidmətdədir və ürəyimdə qürur hissi ilə yanaşı, onun bu çətin və şərəfli yolu ləyaqətlə yerinə yetirəcəyinə olan inam var. Ordu bizim dayağımızdır, onu dəstəkləmək isə hər birimizin borcudur. Oğlum Mustafa da ordu sıralarına böyük həvəslə yola düşdü. Hamımızı söz verdi ki, Vətən qarşısındakı övladlıq borcunu layiqincə yerinə yetirəcək, torpaqlarımızın keşiyində həmişə ayıq-sayıq dayanacaq. Əminliklə deyə bilərəm ki, Mustafa verdiyi sözə, içdiyi anda sadiq qalacaq, ordu sıralarından evimizə alnıaçıq, başıuca qayıdacaq".

Əsgər Ələkbər Məmmədovun atası **Şahmar Məmmədov** dedi: "Bu gün burada, bu şərəfli andiçmə mərasimində iştirak etmək hər birimiz üçün böyük bir qürur və sevinc mənbəyidir. Mən, bir ata olaraq, bu duyğuları si-



zinlə bölüşməkdən iftixar hissi keçirirəm. Övladlarımızın bu müqəddəs vəzifəni yerinə yetirmək üçün addım atmaları, bizlərə dərin bir fəxarət hissi yaşadır. Bu gün burada, oğlumun əsgər formasında, Vətənə xidmət etdiyini görmək biz valideynlər üçün əvəzsiz bir xatirədir. Bu məqamda, övladlarımızın Azərbaycan Ordusuna layiqli əsgər kimi formalaşması prosesində əməyi olan hər kəsə öz dərin minnətdarlığımı bildirirəm. Onu da qeyd edim ki, bir vətəndaş kimi, eyni zamanda, bir valideyn kimi "N" hərbi hissəsində andiçmə mərasimində iştirak edərək əsgərlərimizin intizamının, psixoloji hazırlıqlarının necə yüksək səviyyədə olduğunu öz gözlərimlə gördüm. Son dövrlər qazandığımız uğurlar əsgərlərimizdə döyüş əzmini həddindən artıq yüksəldib. Oğlum Ələkbər də daxil olmaqla bütün əsgərlərin qarşısında bir vəzifə dayanır - Vətənin keşiyində məğrur dayanmaq. Əsgər valideynləri adından demək istəyirəm ki, bizim ən böyük arzumuz övladlarımızın sağ-salamat xidmət edib, Vətən borclarını layiqincə yerinə yetirərək ailələrinin yanına qayıtmasıdır. Əsgər balalarımız da bilsinlər ki, onlar yalnız öz ailələrinə deyil, bütöv bir millətə xidmət etmək üçün buradadırlar. Onlar Vətəni qorumaq üçün and içirlər, biz də hər zaman onlarla qürur duyuruq. Oğullarımızın bu şərəfli yolu uğurla davam etdirmələrini və hər zaman Vətənə layiq əsgərlər olmalarını diləyirəm. Allah onların hər birini qorusun, qələbə hər zaman onlarla olsun!"

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**



**Rəsmiyyə Rövşənova:**

- İllərlə əzizlədiyin övladının Vətənin müdafiəsinə getməsi hər bir ata-ana üçün böyük fəxrdir. Oğlum Hərbi Andı qəbul edərək Vətəni Azərbaycana və onun xalqına sadiq olacağına and içdi. Bu gündən mən də əsgər anasıyam. Bu adın ümdəliyini yaşamaq, vacibliyini hiss etmək bu gün yüzlərlə əsgər anasına qismət oldu. Qüruluyam ki, Vətən müdafiəçiləri sırasında dayanan oğlum Etibar bu gündən şanlı ordumuzun əsgəridir. Övladımı qalib ordunun hərbi mundirində gördüm - valideyn üçün necə də şərəfli və qürurlu bir hissdir! Bu geyim vətənpərvərlik geyimidir. İnanıram ki, əsgər balam öz sələflərinin adını layiqincə doğruldacaq, üzərinə düşən vəzifəni vicdanla icra edəcək, hərbi biliklərini möhkəmləndirəcək, yüksək hərbi intizamı ilə həm komandirlərinə, həm də bizə başucalığı gətirəcəkdir. Sevinirəm ki, vətənpərvərlik yolunda ilkin addımını atan əsgərlərin sırasında da mənim də övladım var. Bir ana hər əsgərin, bir əsgər hər bir ananın doğması və əzizidir. Andiçmə mərasimi təkcə əsgərin deyil, onun valideyninin də həyatında ən yaddaqalan mötəbər hadisələrdəndir. Çünki uzun illər əziyyətini çəkdiyin övladın bu gün ana Vətənin keşiyində layiqincə duracağına müqəddəs andı içdi. Orduda xidmət etmək, Vətən keşiyində durmaq, onun bütövlüyünü qorumaq hər bir vətəndaşın borcudur.

Əsgər valideyni olaraq qürurluyam ki, övladım bu gündən Vətən müdafiəçisidir. Vətəni qorumaq şərəfli işdir,



müqəddəs vəzifədir. Çünki xalqın dayağı onun ordusu, ordunun da dayağı onun xalqıdır. Əsgər övladlarımız bundan sonra dövlətimizin, ordumuzun qayğısıyla əhatələnəcəklər. Bu gün bütün dünya bilir ki, Azərbaycan xalqının inamı onun əsgərinədir, əsgərinin güc mənbəyi isə onun xalqıdır. Dövlətin öz ordusuna göstərdiyi diqqətin nəticəsidir ki, əsgərlərimizin məişət şəraiti yüksəkdir. Övladımla söhbət əsnasında öyrəndim ki, onların qidalanması, gündəlik və xidməti fəaliyyətinin təşkili üçün burada arzuolunan şərait yaradılıb. Evdə bişən yeməklərdən fərqlənməyən təamlar, komandirlərin doğma münasibəti bizi arxayınlaşdırır ki, övladlarımız burada özlərini yad hiss etmirlər. Əsgər övladım mənimlə söhbəti əsnasında gözəl bir fikir dedi, "hərbi xidmət müddətində keçən günlər ömürdən azalan müddət deyil, çünki o Vətən üçün yaşanılan ömürdür".

**(Ardı 5-ci səhifədə)**

# Bir ana hər əsgərin, bir əsgər hər ananın doğması və ezizidir



(Əvvəli 4-cü səhifədə)

Həqiqətən də, övladım artıq Vətən sevgisinin əhəmiyyətini anlayıb və bundan sonra da ömrünü Vətəni və xalqının firavanlığı üçün yaşayacaq. Arzum budur ki, hər bir əsgər öz müqəddəs vəzifəsini layaqətlə yerinə yetirib, öz doğmalarının yanına qayıtsın. Dünyada bundan sonra sülh olsun, firavanlıq olsun. Hər birimiz yaxşı bilirik ki, biz bu günümüzü şəhidlərimizə borcluyuq. Bizim övladlarımız, da öz növbəsində, üzərlərinə düşən vəzifənin öhdəsindən layiqincə gələcək, öz şəhid qardaşlarının ruhlarını ehtiramla yaşadacaq, onların vətənpərvərlik hisslərini qoruyub saxlayacaqlar.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

**Elşanə Cəfərova:**

- Mən məktəbli anasıydım, çağırışçı anasıydım, indi əsgər anasıyam.

Oğullar böyüdükcə anaların arzusu, niyyəti də dönməz olur. Oğullarını yeniyetmələşən görən analar üçün dünya daha da gözəlləşir, ömür daha gözəl olur. Oğul orta məktəbdə oxuyur, təhsil alır - ananın sevinci kükrəyir, oğul orta məktəbi bitirir - ananın fərəhi aşıb-daşır, oğul çağırışçı yaşına çatır - bəxtəvər ana fəxr edir. Bu duyğuları mən oğlumun sayəsində yaşamışam.

Nail ədəbiyyatı da sevirdi. Hərbi xidmətə gedəndə sağollaşma ərəfəsində Səməd Vurğunun bir misrasını demişdi: bir anam - sən, biri Vətən. Oğlum ana bildiyi, ana dediyi, ana kimi sevdiyi Vətənə xidmətə getdi.

Bu gün oğlum Nail Vətənə sədaqət andı içdi. Səsi əsgər yoldaşlarının səsi-



nə qarışsa da, onun səsini aydınlığıyla eşidirdim. Nail də zabitlərin, komandirlərinin əmr və göstərişlərini məsuliyyətlə, vaxtında yerinə yetirəcəyinə and içdi. Onu sırada hərbi mundirdə görəndə əvvəlcə ayırd edə, sonra isə sevincimdən göz yaşlarımı saxlaya bilmədim. Oğlum da mətin addımlarla tribuna önündən keçdi...

Mənim oğlum da əsgərdir, mən də əsgər anasıyam. Qürurlanıram ki, o da Vətənin keşiyindədir. Onun nümunəvi xidmət edəcəyinə inanıram.

**Kapitan**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

**İbrahim Süleymanlı:**

- Oğlum İsmayılın hərbi xidmətə çağırış zamanı gələndə qarışıq hisslər keçirdim. Onun cəsarəti və qətiyyəti ilə qürur duyuram. Həmişə oğluma məsuliyyət və vətənpərvərlik hisslərini aşılamağa çalışmışam və bu gün Hərbi Andı qəbul etməsinin şahidi olduqda zəhmətimin hədər getmədiyini gördüm. Onunla çağırışdan öncə söhbət edərkən başa düşürdüm ki, o, Vətənimizin müdafiəsi üçün məsuliyyət daşımağa hazırdır.

Hərbi Andın qəbulu əsgərlər üçün hərbi xidmətinin başlanğıcını simvolizə edən kulminasiya məqamıdır. Bu həm gənc əsgərlər üçün, həm də biz valideynlər üçün çox təsirli bir ritualdır. Hər bir əsgər oğlumdur, hər birini oğlumtək sevirəm. Əminəm ki, xidmət dövründə onlar hərbi intizamı öyrənəcək, fiziki cəhətdən güclənəcək və psixoloji cəhətdən daha möhkəm olacaqlar. Hərbi xidmət təkcə sınaq yox, həm də həyat



məktəbi olacaq, burada güclü, məsuliyyətli, Vətənə sədaqətli olmağı öyrənəcəklər.

Azərbaycanın ikinci dəfə müstəqillik əldə etməsindən bu günə qədər həm ölkəmizin, həm də ordumuzun nə qədər inkişaf etdiyinin şahidiyik. Artıq biz regionun ən güclüsü, qalib Azərbaycan Ordusuyuq. Bu nəticənin əldə olunmasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı, sarsılmaz xalq-ordu birliyi müstəsna rol oynadı. Hərbi qulluqçularımız da hiss edir ki, onların xidmətləri dəyərlidir və biz onların əməyinə və fədakarlıqlarına görə minnətdarıq.

Bir valideyn olaraq hər gün oğlum haqqında düşünəcək, onun qətiyyəti və cəsarəti ilə fəxr edəcəyəm. Bilirəm ki, o, təkcə özü üçün deyil, hamımız üçün, Vətən üçün, ölkəmizin gələcəyi üçün xidmət edir. Oğlumun xidmətinin uğurlu olacağına inanır, sağ-salamat evimizə qayıdacağını səbirsizliklə gözləyəcəm.

**Baş leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

**Məzahir Alıyev:**

- Bu gün həyatımızda əlamətdar tarixi günlərdəndir və hər valideyn kimi biz də qürurluyuq. Qürur hissi keçiririk ki, övladlarımız azad, müstəqil, suveren ölkəmizin ordusunda xidmət edirlər. Ölkəmizin müstəqillik tarixinə nəzər salsaq, XX əsrin sonlarında ikinci dəfə müstəqilliyini bərpa edən xalqımızı tarixi sınaqlardan, çətin və mürəkkəb şəraitdən Ulu Öndər Heydər Əliyevin çıxardığını görərik. Onun müdrik dövlətçilik təcrübəsi ilə həyata keçirdiyi daxili və xarici siyasət sayəsində ölkəmiz dövlətçiliyini, müstəqilliyini qorudu. Dünya şöhrətli dövlət xadimi üzərinə götürdüyü tarixi missiyanı böyük fədakarlıqla yerinə yetirdi. Azərbaycanı inkişaf etdirərək regionun güclü, qüdrətli ölkəsinə çevirdi .

Müstəqilliyin, dövlətçiliyin əsası olan Silahlı Qüvvələri yenidən formalaşdıraraq monolit qüvvəyə çevirdi. Ordu Vətənin, xalqın güvənc yeri oldu. Ulu Öndərin yaratdığı böyük quruculuq strategiyası onun layiqli varisi, Prezident Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən inkişaf etdirilərək yeni mərhələyə yüksəldi. Azərbaycan Ordusu dinamik surətdə inkişaf etdirildi. 44 günlük Vətən müharibəsi xalqımızın, dövlətimizin həmrəyliyi, ordu-xalq birliyi və Müzəffər Ali Baş Komandanın sərkərdəlik məharəti nəticəsində qələbə ilə başa çatdı. Ermənistan ordusunun birləşmələri torpaqlarımızdan qətiyyətlə çıxarıldı. Xalqımızın tarixinə əbədi olaraq Zəfər salnaməsi yazıldı. Vətənimizin ərazi bütövlüyü, suverenliyi təmin olundu. Azərbaycan xalqı dünyada qalib xalq kimi tanındı. Bu gün hər bir ölkə vətəndaşı rəşadətli ordumuzla və Müzəffər Ali Baş Komandanımızla qürur duyur.

Üç oğul atasıyam. Böyük oğlum Aqşin şanlı ordumuzun zabitidir. "N" hərbi hissəsində xidmət edir. Tovuz döyüşlərinin iştirakçısıdır. Düşmən hücumunun dəf edilməsində döyüş tapşırıqlarını silahdaşları ilə birgə müvəffəqiyyətlə yerinə yetirib. Digər oğlum Babək də Vətən qarşısında müqəddəs borcunu layaqətlə yerinə yetirənlərdəndir. Bu gün Vətənə, xalqa sədaqətlə xidmət edəcəyinə and içən Atilla isə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının məzunudur. O da qardaşı Aqşin kimi zabit peşəsinə yiyələnməyi qarşısına məqsəd qoyub. Fəxr edirəm ki, bu gün övladım Atilla da tarixi qələbəyə imza atan, xalqımıza illərlə gözlədiyi qələbə sevincini yaşadan, onu dünyada qalib xalq kimi tanıdan ordunun sıralarında xidmətini davam etdirəcək. Vətənin etibarlı müdafiəçisi kimi göstərilən etimadı doğruldacaq.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**



**Vəsilə Məmmədova:**

- Vətən müharibəsi başlayanda oğlum məktəbli idi. Hər axşam atası ilə birlikdə televiziyadan cəbhə xəbərlərini izləyir, ordumuzun qələbələrinə sevinirdi. Bir dəfə boynuma sarıldı, "Kaş mən də bir az böyük olaydım, mən də döyüşənlərin sırasında olaydım" - dedi. Atası da, mən də köksümüzə sıxdıq...

Noyabrın 8-də sevinci aşıb-daşırdı, ordumuzun Şuşanı işğaldan azad etməsi onun da qürururuna dönmüşdü.



Oğlum Ariz belə boya-başa çatdı, çağırışçı oldu, hərbi xidmətə gedəndə dedi ki, biz qalib əsgərlərimizin davamçılarıyıq, Vətəni göz bəbəyimiz kimi qoruyacağıq...

Əsgər oğlum Ariz də bu gün Hərbi And içdi. Buna Vətənə sədaqət andı deyirlər. Əsgərlər toplaşanları, zabitləri əmin etdilər ki, nümunəvi xidmət edəcəklər, komandirlərinin əmr və tapşırıqlarını məsuliyyətlə və vaxtında yerinə yetirəcəklər...

Oğlum Arizi hərbi mundirdə görəndə Vətən müharibəsində dediyi sözlər yadıma düşdü: "Kaş mən də bir az böyük olaydım...". O sözləri xatırladım "Gün həmin gündür, oğlum. Elə xidmət et ki, səninlə biz də, müəllimlərin də, komandirlərin də qürurlansın...", - dedim.

Mən əsgər anası kimi bütün hərbi qulluqçularımıza xidməti uğurlar arzulayıram. Onların sırasında oğlum əsgər Ariz Məmmədova da...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

*Bu fikirlər xalqın ordusuna olan sevgisinin dərinliyini və ordumuza bağlılığını bir daha sübut edir. Xalqın ordusu ilə fəxr etməsi, hər bir fərdin onun gücündə öz gücünü görməsi, müstəqilliyimizin əbədi olacağına olan inamını möhkəmləndirir. Azərbaycan xalqı üçün ordu sadəcə hərbi qüvvə deyil, həm də onun güvən mənbəyi, müstəqilliyin, azadlığın və sabitliyin təminatçısıdır.*

*Hərbi Andiçmə mərasimlərində iştirak edən ictimaiyyət nümayəndələri də ordumuzun qəhrəmanlığı və şücaətindən danışaraq, gənc əsgərlərə uğurlar arzulayırdılar. Bu mərasimlər, hər bir vətəndaşın ürəyindəki vətənpərvərlik hisslərini yenidən alovlandırır və bu hisslər xalqın orduya olan bağlılığını bir daha təsdiq edir.*

*Azərbaycan xalqı tarix boyu ordusuna sevgi və dəstəyini əsirgəməmişdir və bu sevgi zəfərlə dolu bir gələcəyin təminatçısı olmaqdadır.*

**"Azərbaycan Ordusu"**

*Medallı igidlərimiz*

# Qüdrətli ordunun layiqli zabiti

Vətənə xidmətdən həmişə qürur duyan, vətənpərvər zabitlərdən söz düşəndə Mirizzət Elmar oğlu Cavadovun adı da iftixarla çəkilir. O, təcrübəli, peşəkar zabit kimi tanınır. Şəxsi heyətin döyüş və mənəvi psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsində öhdəsinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirir. Öyrəndik ki, o, 1990-cı ildə ölkəmizin cənub mirvarisi sayılan Lənkəran rayonu Boladi kəndində anadan olub. "Oğul düşmən çəpəridir", - deyən yaxınlar, doğmalar Cavadovlar ailəsinə göz aydınlığı veriblər. Vətəninə, xalqına layiq övlad olmasını arzulayıblar.

Mirizzət Birinci Qarabağ müharibəsi şəhidi Nahir Axundovun adını daşıyan kənd orta məktəbində təhsil alıb. Əlaçı, nümunəvi şagird kimi tanınıb. Bilik yarışlarının, fənn olimpiadalarının qalibləri sırasında olub. Qədim tariximizə, hərb sənətinə böyük maraq göstərib. Bəzən özünü adlı-sanlı qəhrəmanlara bənzədib. Gələcəkdə onlar kimi olacağına söz verib.

2004-cü ildə 8-ci sinfi bitirərək Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olub. Beləliklə də ilk arzusunu gerçəkləşdirib, kursant adını qazanıb. Təhsil illərində də həmişə yüksək müvəffəqiyyətlər qazanıb. 2007-ci ildə Heydər Əliyev adına Ali Hərbi Məktəbə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) daxil olub. Təcrübəli zabitlərdən, müəllimlərdən hərb sənətinin sirrlərini hərtərəfli öyrənməyə çalışıb. Göstərilən etimadı həmişə doğruldan Mirizzət kursant kimi təlim və məşğələlərdə də fəal iştirak edib.

Məsuliyyətli, çətin, bütün peşələrdən üstün sayılan zabit peşəsinin Vətən, xalq üçün daha çox gərəkli olduğunu düşünüb. "Leytenant" hərbi rütbəsinə layiq görüldüyü günü həyatının ən mənalı, unudulmaz günü hesab edir. Həmin gün



Mirizzətin ata-anası daha çox sevinib, ona Vətənə xidmətində uğurlar arzulayıblar.

"N" hərbi hissəsində gənc zabit kimi xidmətə başlayıb. Taqım komandiri vəzifəsinə təyin olunub. Çox keçməyib ki, tabeliyindəki şəxsi heyət döyüş hazırlığında fərqlənib. Sonra Mirizzət cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində xidmətini davam etdirib. Vətənin keşiyində dayanaraq düşmən təxribatlarının qarşısının alınmasında iştirak edib. Komandirlik etdiyi şəxsi heyət həmişə yüksək vətənpərvərlik və döyüş ruhu aşılayıb. Hər zaman Ali Baş Komandan cənab İlham Əliyevin əmrini yerinə yetirməyə hazır olduqlarını göstəriblər. Təyin olunduğu bütün vəzifələrdə Mirizzət xidməti borcunu əzmlə və fədakarlıqla yerinə yetirərək, komandanlığın rəğbətini qazanıb.

27 sentyabr 2020-ci ildə Ermənistanın növbəti genişmiqyaslı təxribatlara cavab olaraq Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin əks-hücum əmri ilə ordumuz torpaqlarımızın azad edilməsi üçün döyüş əməliyyatlarına başladı. Mirizzətin xidmət etdiyi hərbi hissənin şəxsi heyəti də müqəddəs amal uğrunda ağır döyüşlərə atıldı. Onlar qarşıya qoyulan döyüş tapşırıqlarını uğurla yerinə yetirir, kənd və qəsəbələrimizi, şəhərlərimizi işğalçılardan təmizləyirdilər. 44 gün davam edən Vətən müharibəsi ordu və xalqın yenilməz birliyi və Müzəffər Ali Baş Komandanın sərkərdəlik məharəti nəticəsində tarixi Zəfərlə başa çatdı.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Mirizzət Elmar oğlu Cavadov "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif olunub. Azərbaycan zabiti adını şərəflə daşıyan mayor M.Cavadov "N" hərbi hissəsində xidmətini uğurla davam etdirir. Tarixi Zəfər Gününü yazanların sırasında olmağından həmişə qürur hissi keçirdiyini bildirdi.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

## Hava hücumundan müdafiə bölmələri ilə taktiki-xüsusi təlim keçirilib



*Cari ilin hazırlıq planına uyğun olaraq, hava hücumundan müdafiə bölmələri ilə taktiki-xüsusi təlim keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlim zamanı S-300 "Favorit" zenit-raket komplekslərinin divizionlarının döyüş heyətləri texnikanı döyüşə hazır vəziyyətə gətirərək mövqe rayonlarına marş edib, start mövqelərinə yerdəyişmə, ərazinin hazırlanması və maskalanması tapşırıqlarını yerinə yetiriblər.

Təlimdə vacib obyektlərin hava hücumundan mühafizəsi, habelə şərti düşmənin raket zərbələrinin dəf edilməsi üzrə tapşırıqlar da müvəffəqiyyətlə icra edilib.

Məşğələlərin keçirilməsində əsas məqsəd hərbi qulluqçuların nəzəri bilik və praktiki vərdişlərinin artırılması, həmçinin hava hücumundan müdafiə bölmələrinin döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılmasıdır.

## Müdafiə Nazirliyinin məlumatı

Avqustun 18-i saat 19:30 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Ləkətağ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

* * *

Avqustun 18-i saat 23:50 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zərkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Kəlbəcər rayonunun Dəmirçidam yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

* * *

Avqustun 19-da saat 09:50 radələrində Ermənistan silahlı qüvvələrinə məxsus kvadrokopter Gorus rayonunun Brun yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun üzbəüz mövqeləri üzərində kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərib.

Bölmələrimizin sayıqlığı nəticəsində aşkar olunan pilotsuz uçuş aparatının fəaliyyətinə xüsusi texniki vasitələrlə müdaxilə edilib və ərazidən uzaqlaşdırılıb.

## Hərbi qulluqçularımız "Altın Kıran - 2024" təlimində iştirak edir

Azərbaycan və Qazaxıstan respublikalarının Müdafiə nazirlikləri arasında imzalanmış birgə plana əsasən, Qazaxıstan Respublikasının Almatı vilayətinin Jarkent şəhərində yerləşən "Koktal" təlim poliqonunda "Altın Kıran - 2024" ("Qızıl Qartal - 2024") birgə taktiki-xüsusi təlimi keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimdə iştirak etmək üçün Azərbaycan Ordusunun bir qrup hərbi qulluqçusu Qazaxıstana səfər edib.

"Altın Kıran - 2024" birgə taktiki-xüsusi təlimi avqustun 24-dək davam edəcək.

*Gənc zabitlərimiz*

## Əsgərdən zabitə yüksələn şərəfli yol

Hərbi xidmət sadəcə iş deyil, tam fədakarlıq, cəsarət və əzm tələb edən xidmətdir. Dahi şəxsiyyət, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev bu haqda "Hər bir peşə şərəflidir, ancaq Vətəni qorumaq peşəsi hər bir peşədən üstündür, şərəflidir" demişdir. Təbii ki, qürurverici peşələr haqqında düşündükdə insanın ağlına ilk hərb sənəti gəlir. Bu peşə sahibləri sülhün və sabitliyinin təmin edilməsində ən əsas rol oynayırlar. Bundan əlavə, hərbi xidmət insandan intizam, fiziki və psixoloji sağlamlıq, liderlik bacarığı, həm də yüksək insani və milli-mənəvi dəyərlərə sadiqlik tələb edir.

Hərbi xidmətin əsas fiqurlarından biri gənclərimizdir. Onlar vəzifə borclarının yerinə yetirilməsi ilə yanaşı, həm də ordu həyatına yeni fikirlər, ideyalar, müasir baxış və ruh yüksəkliyi gətirirlər. Vətənpərvərlik və məsuliyyət ruhunda tərbiyə olunan gənclərimiz fəaliyyətlərinin ilk günlərindən yüksək fədakarlıq və Vətənə xidmətə hazır olduqlarını nümayiş etdirirlər. Azərbaycan Ordusunun sıralarında xidmət edən hərbçilərimizin hər biri Vətənin qorunmasına və çiçəklənməsinə öz töhfələrini verir. Onların arasında sıravi əsgərdən zabitə qədər şərəfli yol keçərək öz işinə ən yüksək peşəkarlıq və sədaqət nümayiş etdirənlər yetərincədir.

Təbii ki, müasir ordunun inkişafında və möhkəmlənməsində gənc zabitlərin töhfəsini qiymətləndirməmək olmaz. Daim öz üzərlərində çalışmaq, özlərini təkmilləşdirmək və Vətənə şərəflə xidmət et-



mək amalında olan zabitlərimiz əsl liderə çevrilirlər. Sözsüz ki, ordunun gələcəyi də gənc zabitlərin müasir dövrün reallıqlarına nə qədər uğurla hazırlanmalarından asılıdır. Bir sözlə, gənc zabitlərimiz ordumuzun parlaq gələcəyinin təminatçısıdır.

Leytenant Səxavət Kərimov da ordu sıralarında xidmət edən belə gənclərdəndir. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti genişmiqyaslı təxribatına cavab olaraq başlanan Vətən müharibəsində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sabunçu rayon İdarəsinə müraciət edərək, hərbi xidmətə yollanmaq istədiyini bildirib. Səxavətin hərbi həyatı məhz bu gündən başlayıb. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətə başlasa da, komandirləri onun bilik və savadına görə "Ehtiyat zabit hazırlığı" kursuna göndərirlər. Səxavət kursu fərqlənmə ilə bitirir. "Bu kursa daxil olmaq mənim üçün yeni mərhələ idi. Bu, məsuliyyət tam öhdəlik tələb edən ciddi və gərgin bir dövr idi. Kurs həm nəzəri biliklərin mənimsənilməsi, həm də intensiv praktiki təlimləri əhatə edirdi. Taktika, topoqrafiya, atəş, ixtisas hazırlığı və digər fənlərdən dərs deyən müəllimlərimiz bizi peşəkar zabit kimi formalaşdırmaq üçün səylərini əsirgəmirdilər. Bir sözlə, hər günümüz şəxsi inkişaf üçün səmərəli keçirdi".

Leytenant S.Kərimov bildirdi ki, 2021-ci ildə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi NATO-nun "Qətiyyətli Dəstək" missiyasının tərkibində Əfqanıstanda fəaliyyət göstərən Azərbaycanın sülhməramlı kontingentində də xidmət edib.

"Qalib Azərbaycan Ordusunda xidmət etmək şərəf və məsuliyyətdir. Vətənim Azərbaycana xidmət etməkdən qürur duyuram və onun müstəqilliyi, ərazi bütövlüyü uğrunda can verməyə hazıram. İçdiyim Hərbi Anda sadiq, Ali Baş Komandanın verdiyi döyüş əmrinə hər an hazır olacağıma söz verirəm", - deyərək leytenant S.Kərimov sözünü bitirdi.

Gənc zabitlə söhbətdən sonra bir daha anladım ki, əsgər rütbəsindən zabitliyə gedən yol təkcə peşəkar inkişaf deyil, həm də dərin şəxsi transformasiyadır. Səxavətin həyat yolu zəhmət və fədakarlıq sayəsində qarşıya qoyulan məqsədlərə nail ola bilməyin əyani sübutudur. Vətənə şərəflə xidmət edən və şəxsi nümunəsi ilə başqalarını ruhlandıran hərbçilərimizlə hər zaman fəxr edirik.

**Baş leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Odusu"**

## Milli Qəhrəmanlarımız

# Vətən uğrunda yaşanan ömür

*Xalqımızın tarixində mübarizə və qəhrəmanlıqla dolu səhifələr vardır. Bu səhifələr millətin varlığını qorumaq, müstəqilliyini təmin etmək uğrunda göstərilən igidliklə, şücaətlərlə yazılır. Azərbaycan xalqı üçün belə igidlik dastanlarından biri torpaqlarımızın bütövlüyü uğrunda vuruşmuş və bu yolda canını fəda etmiş Milli Qəhrəmanlarımızdır. Bu qəhrəmanlardan biri də öz canını Vətən uğrunda qurban vermiş, əsl igidlik nümunəsi göstərmiş Fazil Mehdiyevdir.*

Mehdiyev Fazil Umud oğlu 20 avqust 1966-cı ildə Laçın rayonunun Ələkçi kəndində



dünyaya göz açıb. Lakin onun ailəsi körpə ikən Ağdama köçüb. Uşaq yaşlarından Azərbaycan sevgisi və vətənpərvərlik ruhunda böyüyən Fazil 1983-cü ildə məktəbi bitirdikdən sonra 1984-1986-cı illərdə Sverdlovsk şəhərində hərbi xidmətdə olub. Hərbi xidmət onu yalnız bir əsgər kimi deyil, həm də əsl vətənpərvər kimi yetişdirib. O, Vətən torpaqlarına olan sevgisini və borcunu heç vaxt unutmayıb.

1990-cı ildə torpaqlarımızın erməni işğalçıları tərəfindən təhdid altında olduğunu görən Fazil, heç tərəddüd etmədən Ağdam rayon Daxili İşlər Şöbəsində yaradılmış polis batalyonuna yazılıb. O, Vətəninə olan borcunu yerinə yetirmək üçün ən qaynar döyüş meydanlarında fəal iştirak edib. Xocalı, Ağdərə, Qaradağlı, Kərkicahan, Kosalar, Canyataq, Mehmanə, Qazançı və Sırxavənd kəndlərində döyüşərək, şəxsi igidlik və şücaət nümayiş etdirib.

Fazil Mehdiyev Vətən uğrunda şəhid olmaqdan heç vaxt çəkinməyib. 1991-ci ilin sentyabr ayında ağır yaralanıb. Sağalan kimi cəbhəyə qayıtması onun Vətən sevgisinin, döyüş ruhunun və qəlbindəki vətənpərvərlik hisslərinin nə qədər güclü olduğunu göstərir. 23 sentyabr 1991-ci il gecəsi ermənilərin hücum etdiyi vaxt, Fazil dostu Salehlə birlikdə köməyə gedərkən, Ağdama gələn yolda pusqu quran ermənilər tərəfindən atəşə tutulub və bu atışmada həyatını itirərək, şəhidlik zirvəsinə yüksəlir.

Fazil Mehdiyevin şərəfli və cəsurluq dolu həyat yolu, Vətənə olan sadiqliyin, əsl vətənpərvərliyin canlı nümunəsidir. Onun əziz xatirəsi xalqın yaddaşında əbədi olaraq yaşayacaqdır. Ağdamın Qarağacı qəbiristanlığında dəfn edilən Fazil öz gənc ömrünü Vətən uğrunda fəda edərək, gələcək nəsillər üçün bir qəhrəmanlıq simvoluna çevrilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli Fərmanı ilə Mehdiyev Fazil Umud oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Bu fəxri ad onun göstərdiyi qəhrəmanlığa verilən ən yüksək qiymətdir. Bu gün onun adı Bakı şəhərində küçələrdən birinə verilib, Xətai prospektində adını daşıyan parkda onun büstü qoyulub. Bu abidə Fazil Mehdiyevin Vətən uğrunda göstərdiyi şücaətin əbədiləşdirilməsi onun qəhrəmanlıq ruhunun gələcək nəsillərə ötürülməsi üçün atılmış mühüm addımlardır.

Fazil Mehdiyev kimi qəhrəmanlar Azərbaycanın əbədi müstəqilliyinin, torpaqlarımızın bütövlüyünün təminatçısıdır. Onların göstərdiyi igidlik, xalqımızın hər zaman yaddaşında qalacaq və bu qəhrəmanlıq dastanı Azərbaycan tarixində əbədi yaşayacaqdır. Vətən uğrunda canını fəda etmiş bu qəhrəmanlara borcumuz sonsuzdur və onların əziz xatirəsini daima yaşatmaq bizim ən müqəddəs vəzifəmizdir.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

## Heç kim unudulmur

# Ölməzliyin əbədi ünvanı - şəhidlik

*Yeddi il öncə erməni təcavüzkarlarının Xocavənd istiqamətində növbəti təxribatı baş verdi. 2017-ci il fevralın 24-dən 25-ə keçən gecə mayor Aqşin Abdullayev tabeliyindəki heyət ilə birlikdə erməni hərbi birləşmələrinin törətdiyi təxribatın qarşısını almaq və komandanlığın döyüş tapşırığını yerinə yetirmək məqsədilə təcili olaraq qaynar nöqtəyə göndərildi. Cəsarəti, hünəri ilə seçilən mayor Aqşin Abdullayev və onun döyüşçü yoldaşları içdikləri Hərbi Anda sadiq qalaraq, düşmənlə son damla qanlarınadək döyüşdülər. Düşmən təxribatının qarşısını mərdliklə alarkən şəhidlik zirvəsinə ucaldılar. Budur, ölməzliyin əbədi ünvanı - şəhidlik...*



Şəkinin qədim Kiş kəndində möhtəşəm bir abidə ucalır. Şəhid Aqşinin ölməzliyinə ünvanlanmış abidə. Burada uyuyan Vətənin şəhid oğlu igidliyi doğma Qafqaz dağlarının əzəmətindən, cürəti, cəsarəti, qorxmazlığı göz qırpımında qaynayıb kükrəyən, aşıb-daşan Kiş çayından almışdı. Sanki sıralanmış Qafqaz dağları şəhid Aqşini qoynuna alıb, ruhuna həzin-həzin laylalar deyirdi... Məzar daşına həkk olunan yazını oxuyuram. "Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şücaət göstərərək, canından keçərək şəhid olub".

Sinəsi dağlı, başı qalalı dağların ətəyində məskən quran bir də qədim Kiş kəndi var. Tarixi ta qədimlərə söykənən bu kəndin gəncləri hər zaman qoçaqlığı, igidliyi, qeyrəti ilə seçilib. Elin, obanın arxa-dayağı olublar. Aqşin kimi ölməz oğlu var bu kəndin. Aqşinə əbədi yaddaşlarda qalan o igidlərdəndir. Bu gün Aqşini təkcə Kiş kəndinin camaatı deyil, bütün Azərbaycan xalqı tanıyır. Xalqımız hər zaman Vətən yolunda canından keçən oğulları ilə fəxr edib qürur duyur. Onların adları əbədiləşdirilir, xatirəşi daima əziz tutulur.

Aqşin İsmayıl oğlu Abdullayev 1982-ci il oktyabrın 7-də Şəki rayonunun Kiş kəndində dünyaya göz açmışdı. Boya-başa çatdığı dağların qoynunda yerləşən Kiş kəndinin tarixiliyi, qədimliyi Aqşinin dünyagörüşünün formalaşmasında böyük rol oynamışdı. Orta məktəbi əla qiymətlərlə başa vuran Aqşin Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) daxil olub. 2003-cü ildə hərbi təhsilini başa vuran Aqşin "leytenant" hərbi rütbəsinə layiq görülür, Azərbaycan Ordusunun müxtəlif hərbi hissələrində şərəfli xidmət yolu keçib. Xidmət dövründə nümunəvi zabit kimi fəxri fərmanlarla, diplomlarla, "Qüsursuz xidmətə görə" 2-ci və 3-cü dərəcəli medallarla təltif olunub. Vətənpərvər zabit mayor Aqşin Abdullayev göstərdiyi igidliyə görə ölümündən sonra Azərbaycan Respublikası Prezidenti "Şücaətə görə" medalına layiq görülüb.

Gələcək nəsillərin əsl vətəndaş kimi yetişməsində səmərəli fəaliyyət göstərən və çalışdığı təhsil sahəsinə töhfələr bəxş edən Əməkdar müəllim Dursun Abdullayeva şəhid oğlunun şərəflə yaşadığı həyatından danışır: "Aqşin həyatı başa düşəndən qonum-qonşuya, qohum-əqrəbaya, elə-obaya yanan olub. Kənddə kiminsə ağır bir işi olanda tez Aqşini çağırardı. Uşaqlıqdan dostcanlı, qohumcanlı, mehriban idi. Uşaqla uşaq kimi, böyüklə böyük kimi davranardı. Onun haqqında heç vaxt keçmiş zamanda danışa bilmirəm. Gördüyünüz bu dağların hər daşına, qayasına bələd idi. Onun qorxmaz, çevik, igid, hünərli olması, əzəmətli dağların, dərələrin abu-havasının əsəri idi. Bütün dağlıq-meşəlik yolları tanıyırdı. Aqşin kəndimizin təbiətinin vurğunu idi. Saatlarla təbiətin qoynunda olardı. Heyvanları və bitkiləri çox sevirdi. Həyətə gətirib müxtəlif bitkilər əkirdi. Onlar üzərində müşahidələr aparırdı. Mənə tez-tez məntiqli suallar verirdi. Fikirləşirdik ki, Aqşin böyüyəndə bioloq olacaq. Lap kiçik yaşlarından oxumağa, elmə maraq göstərirdi. Hələ dörd yaşı var idi. Nənəsinin yanında qoyub məktəbə getməli olurdum. Tənəffüs zamanı bir də görürdüm ki, Aqşin ya Bahirə müəllimənin, ya da Alışan müəllimin sinfindən çıxır. Aqşin orta məktəbi bitirdikdən sonra artıq seçimini etmişdi. Gələcəkdə peşəkar hərbçi olacağını qarşısına məqsəd qoymuşdu", - deyə Dursun ana gözlərinin yaşını saxlaya bilmir.

Yenidən söhbətinə davam edir: "O, ölümdən qorxmurdu. Deyirdi ki, hər bir əsgər, hər bir zabit üçün döyüş labüddür. Döyüşə gedən bilir ki, bu yolda ölüm də var, sağ qalmaq da. Ancaq gərək qorxmayasan. Hər anaya öz övladı əzizdir. Təkcə mən onunla övladım olduğuna görə deyil, Azərbaycan Ordusunun bir zabiti, hərbçisi kimi fəxr edirdim. Vətənini, xalqını, dövlətini, bayrağını, ordusunu sevən bir zabit kimi... Bu gün də fəxr edirəm, sabah da fəxr edəcəm ki, mənim övladım canı qədər sevdiyi Vətən, torpaq, bayraq uğrunda şəhid olub. Aprel döyüşlərindən, qələbəmizdən, döyüşlərdə şəhid olan hərbçilərimizdən çox danışırdı. Şəhidlik hər kəsə qismət olmur. O zirvəyə hər kəs ucala bilmir. Aqşin özünün arzuladığı yolu seçdi. "Torpaq, uğrunda ölən varsa, Vətəndir" - deyirdi Aqşin. 44 günlük Vətən müharibəsində Aqşin kimi bütün şəhid oğullarımızın qisası alındı. Torpaqlarımız azad olundu. Aqşingilin başladığı haqq işi uğrunda mübarizənin sonu Böyük Zəfərlə bitdi. Azərbaycanımızın suverenliyi, ərazi bütövlüyü tam təmin edildi".

Dursun ana danışır ki, uşaq olanda Aqşin ona sual verərmiş, Vətən nədir? Cavab verərdim ki, bax, bizim bu evimizdən başlayır Vətən. Bizim evimiz, Kiş kəndi, Şəkimiz, Qafqaz sıra dağları, nəhayət, Azərbaycan bizim Vətənimizdir. Doğma Vətənimiz. Onun hər qarışı bizim üçün əzizdir. Bir möcüzə idi. Şəhid olanda da Vətən torpağı ovcundaydı... Yağış yağan kimi həyətə qaçırdı. Torpağın şirin ətrini sevərdi. Sanki torpaq qoxusu ovsunlayırdı onu. Deyirdi ki, torpaqlarımız düşməndən azad olunsun, gedib Ağdamda ev tikib orada yaşayacam. Görün, Aqşinin qəlbindən hansı arzular keçirdi.

Qədim Kiş kəndində Abdullayevlər ailəsində bir oğlan uşağı böyüdü. Gəlişi ilə ataana, bütün qohum-əqraba sevinib, bayram edib qurban kəsmişdi. Adına Aqşin dedilər. "İgid, qəhrəman, elə-obaya gərəkli övlad, Vətənə layiqli oğul ol, əməlinlə başımızı uca et, şöhrətin hər yana yayılsın", - deyə Bakıya hərbi məktəbə təhsil almağa yola salanda kursant Aqşinə xeyir-dua verməmişdi qohum-əqrabası, sevimli müəllimləri və kəndin camaatı.

Oğlu Vətən yolunda, torpaq uğrunda şəhid olan İsmayıl Abdullayev deməşdi: "Bu mənə bir ata kimi qürur verir. Oğul Vətən üçün doğulur. Aqşinin üç övladı bizə əmanət qalıb. Onlar atasına layiq övlad kimi böyüyüb əsl vətəndaş olmalıdırlar. Aqşinin yarımçıq qalmış arzularını onlar həyata keçirməlidirlər". İsmayıl kişi ötən il iyulun 24-də dünyasını dəyişərək, oğlu Aqşinə qovuşdu. Allah sizə rəhmət eləsin, şəhid atası.

Aqşinin böyük oğlu Amin Azərbaycan Memarlıq və İnşaat Universitetinin 3-cü kursunda təhsil alır. Qızı Nərminin 16 yaşı var. 10-cu sinifdə oxuyur. Sonbeşik Ömər isə məktəblidir. Şəhidin həyat yoldaşı Xuraman xanım deyir ki, Aqşin şəhid olanda Ömər 6 aylıq olub. Çox həssas uşaq idi. Şəkillərinə həmişə diqqətlə baxırdı. Elə bil ki, onu tanıyırdı. Şəkildəki insan ona çox doğma gəlirdi. Danışmaq istəyirdi...

Bu gün Şəki şəhərində mərkəzi küçələrdən biri şəhid mayor Aqşin Abdullayevin adını daşıyır. Xocavənd rayonunda 2017-ci il fevralın 24-dən 25-ə keçən gecə düşmən təxribatının qarşısını alarkən şəhid olan Aqşin və onun döyüş yoldaşlarının xatirəsinə abidə yaradılıb, park salınıb.

Aqşin kimi oğulların əbədiyyət qazanan, dastanlara dönən ömürləri tariximizin şanlı səhifələrinə qızıl hərflərlə yazılıb. Bu qürurlu tarix də nümunə olacaq.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar



**Somalidə hərbçilərin avtomobili partladılıb, azı 12 nəfər ölüb**

Somalidə terrorçuların hökumət qüvvələrinə məxsus avtomobili partlatması nəticəsində azı 12 nəfər ölüb.

Bu barədə Garowe nəşri məlumat yayıb.

"Somalinin cənubunda, yol kənarında hökumət qüvvələrinin pikapını hədəf alan partlayış nəticəsində azı 12 nəfər həlak olub, 9 nəfər yaralanıb", - deyə məlumatda bildirilir.

Qeyd olunur ki, hücuma görə məsuliyyəti "Əl-Şəbab" qruplaşması üzərinə götürüb.



**Media: Ukrayna Kursk bölgəsinə hücumda Britaniyanın Pilotsuz uçuş aparatlarından istifadə edir**

Ukrayna silahlı qüvvələri Kursk bölgəsinə hücumda Böyük Britaniyadan gətirilən pilotsuz uçuş aparatlarından istifadə edir.

Bu barədə "The Sunday Times" qəzeti məlumat yayıb.

Nəşrin məlumatına görə, Böyük Britaniya hökumətinin fəaliyyəti təkcə silah təchizatı ilə məhdudlaşmır. Belə ki, britaniyalı müşavirlər Ukrayna hərbi komandanlığının planlarının müzakirəsində fəal iştirak edirlər.

Bundan əvvəl, "Sky News" kanalı da Ukrayna silahlı qüvvələrinin Kursk vilayətində Londonun verdiyi "Challenger 2" tanklarından istifadə etdiyini bildirmişdi.



**Türkiyə İraqın şimalında 9 terrorçunu zərərsizləşdirib**

Türkiyə Hərbi Hava Qüvvələri İraqın şimalındakı Hakurk bölgəsində terrorçuların hədəflərinə növbəti zərbələr endirib.

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyi xəbər verib.

Nazirliyin məlumatına əsasən, qadağan olunmuş PKK təşkilatının 9 yaraqlısı zərərsizləşdirilib.

Türkiyə Müdafiə Nazirliyindən daha əvvəl bildirilib ki, bu il yanvarın 1-dən avqustun 15-dək Türkiyə ordusu bölgədə ümumilikdə 1725 terrorçunu zərərsizləşdirib. Onlardan 845-i İraqın şimalında, 880-ni isə Suriyanın şimal bölgəsində məhv edilib.

Daha əvvəl Türkiyə Daxili İşlər Nazirliyi PKK terror təşkilatı ilə əlaqədə şübhəli bilinən 222 nəfərin saxlanıldığını açıqlayıb.



**Cənubi Koreya və ABŞ birgə hərbi təlimlər keçirir**

Cənubi Koreya və ABŞ bu gündən "Ulchi Freedom Shield" adlı illik birgə hərbi təlimlərə başlayıb.

Təlimlərdə məqsəd birgə müdafiə hazırlığını və Şimali Koreyadan gələn təhlükələrə qarşı durmaq qabiliyyətini gücləndirməkdir.

Avqustun 29-dək davam edəcək təlimlərin proqramına kompüter simulyasiyası və mülki müdafiə bacarıqlarının praktiki tətbiqi əsasında əsgərlərin məşqləri daxildir. Təlimlər quru, dəniz, hava, kiber və kosmos da daxil olmaqla müxtəlif vasitələrdən istifadə etməklə tammiqyaslı müharibə ssenarilərinə əsaslanır.

Təşkilatçılar əmindirlər ki, bu cür təlimlər Cənubi Koreya və ABŞ-ın istənilən təxribatlara cavab vermək və nüvə silahından müdafiə etmək qabiliyyətini və hazırlığını daha da gücləndirəcək.



**ABŞ ordusu Yəmənə zərbələr endirib**

ABŞ ordusu Yəməndə üsyançı husilərin "Ənsar Allah" hərəkatına məxsus pilotsuz uçuş aparatını hədəfə alaraq zərbə endirib.

Bu barədə ABŞ Mərkəzi Komandanlığı məlumat yayıb.

Komandanlığın "X" sosial hesabında yayımlanan bəyanatda deyilir: "Mərkəzi Komandanlıq qüvvələri Yəməndə husilərin nəzarətində olan ərazidə husilərə məxsus PUA-nı uğurla məhv edib".

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

## Azərbaycan təmsilçiləri Moskvadakı turniri 8 medalla başa vurublar



Azərbaycan təmsilçiləri Rusiyanın paytaxtı Moskva şəhərində keçirilmiş I dünya korporativ oyunlarında 8 medal qazanıblar.

Azərbaycanı yarışlarda təmsil edən müxtəlif dövlət qurumlarının əməkdaşlarından ibarət komandalar oyunları 3 qızıl, 3 gümüş və 2 bürünc medalla başa vurublar. Oyunların şahmat yarışlarında AZAL-ın əməkdaşı Fidan Ağasıyeva, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin əməkdaşı Anar Rəsulov fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Daha bir qızıl medalı isə voleybol yarışlarında ölkəmizi təmsil edən Fövqəladə Hallar Nazirliyinin komandası əldə edib.

Stolüstü tennisçi Svetlana Kayumova (SOCAR) ikinci olub. Bu idman növünün qarışıq komanda yarışlarında Əli Bayramov (FHN) və Svetlana Kayumovadan (SOCAR) ibarət cütlük gümüş medala layiq görülüb.

Basketbol yarışlarında A finalında mübarizə aparan kişilərdən ibarət komanda (Fövqəladə Hallar Nazirliyi) bürünclə kifayətlənib. B finalında mübarizə aparan basketbol üzrə qadınlardan ibarət komanda (AZAL) gümüş, voleybol üzrə qadınlardan ibarət komanda (SOCAR) isə üçüncü yerə sahib çıxıb.

## Azərbaycanın basketbol yığmaları Avropa Kubokunda mübarizə aparacaqlar



Azərbaycanın 3x3 basketbol üzrə kişi və qadın yığmaları Avropa Kubokunda mübarizəyə ilk olaraq qadın millisi start verəcək. Kollektiv ilk qrup oyununu avqustun 22-də Bakı vaxtı ilə saat 15:40-da İspaniya, ikinci qrup matçını saat 19:15-də Avstriyaya qarşı keçirəcək.

Kişilərdən ibarət millinin qrupdakı rəqibləri isə Avstriya və Niderland seçmələridir. Yığma ilk qrup oyununda Bakı vaxtı ilə saat 15:40-da Niderland, ikinci görüşündə isə saat 19:15-də Avstriya ilə üz-üzə gələcək. Hər iki qarşılaşma avqustun 23-də oynanılacaq.

## "Sabah"ın legioneri Azərbaycan çempionatlarında 30-cu qoluna imza atıb



"Sabah"ın hücumçusu Coy-Lens Mikels Azərbaycan çempionatlarında 30-cu qolunu vurub. Peşəkar Futbol Liqasının rəsmi saytı xəbər verir ki, onun yubileyi Azərbaycan Premyer Liqasının III turuna təsadüf edib. Otuz yaşlı almaniyalı forvard "Neftçi" ilə səfər görüşündə (2:0) fərqlənib.

"Sabah"ın Premyer Liqada ən yaxşı bombardiri olan Coy-Lens bütün qollarını Bakı klubunun heyətində vurub. O, "30"a 64-cü oyununda çatıb.

Mikels Azərbaycan çempionatları tarixində 30 və daha çox qola imza atan 101-ci futbolçudur. O, eyni sayda fərqlənən Kamal Quliyev, Ceyhun Sultanov və Valter Quqlemonla 98-101-ci yerləri bölüşür.

**AZƏRTAC-ın materialları əsasında**

*Maraq dünyamız*

# Alov vadisi - Nevada Dövlət Parkı





"Alov vadisi" ABŞ-ın Nevada ştatında yerləşən ən qədim və ən gözəl təbiət parklarından biridir. 1935-ci ildə kəşf edilən parkın sahəsi təxminən 141 km$^2$-dir.

Alov vadisi qəhvəyi-qırmızı qayalı mənzərələri ilə kifayət qədər məşhur və eyni zamanda, turizm üçün təhlükəli yerdir.

Parkın ərazisi, inanılmaz mənzərəli qum təpələrinə, həmçinin aşınmış daş birləşmələrinə, eləcə də qədim hindu tayfası olan Anasazi qaya sənətinə ev sahibliyi edir.

Parkın kanyon, qaya və yamacları müxtəlif çalarlara malikdir və nadir görülən parlaq palitra ilə boyanmışdır. Park adını 150 milyon il əvvəl yaranmış qayaların unikal alovlu qırmızı rənginə görə almışdır.

Alov vadisinin qeyri-adi formasiyaları əsasən, daşlaşmış qum təpələridir. Külək, temperaturun dəyişməsi və yağıntılar milyonlarla ildir yumşaq yataqları məhv edərək çoxrəngli qayaların təbəqələrini üzə çıxarmış və qayalara indi müşahidə etdiyimiz qəribə formalar vermişdir.



Park adını təkcə qayaların gözəlliyinə, rəngi alova bənzədiyinə görə deyil, həm də qırmızı daşlar arasında çox isti olduğuna görə almışdır. Gözəl günəşli bir gündə bütün vadinin alov içində olduğu təəssüratı yaranır. Günün vaxtından asılı olaraq qayaların forma və rəngləri sarı, ağ, çəhrayı və odlu qırmızı çalarları əldə edir.

Bu heyrətamiz və rəngarəng yer Mohave səhrasında yerləşir və öz fantastik mənzərələri ilə səyahətçiləri cəlb edir.

"Alov vadisi" parkı Nevadadakı ən qədim parkdır. Yarandığı gündən bəri park öz ərazisini, o cümlədən al-qırmızı qayaların ümumiyyətlə, üstünlük təşkil etmədiyi yeni ərazilər də daxil olmaqla, təxminən 4 dəfə böyütmüşdür.

**"Azərbaycan Ordusu"**

Tibb xidməti baş leytenantı Oruczadə Elşad Vilayət oğluna verilmiş MN №0043668 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

İsmayılov İlkin Azər oğluna verilmiş №109466 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Umbayev Əjdər Məhəmməd oğluna verilmiş №086171 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

**Növbətçi**
kapitan
Fuad CƏFƏROV

Lisenziya № 361
Sifariş № 510
Nüsxə 2000